BAĞIŞLA BİZİ, NƏSİR MÜƏLLİM

Nəsir Əsədulla oğlu İmanquliyev Azərbaycan mətbuatındakı yarım əsrlik fəaliyyəti dövründə silinməz izlər qoymuşdur. Dərin, hərtərəfli biliyə, zəngin jurnalistlik qabiliyyətinə, yüksək mədəniyyətə, intellektə malik, insanpərvərliyin və əsl müəllimliyin bariz nümunəsi olan alicənab Nəsir müəllim "Bakı" və "Бакy" qəzetlərinin təməlini qoymuş, 30 il bu qəzetlərin baş redaktoru olmuş və BDU-nun jurnalistika fakültəsində 20 il müəllimlik etmişdir.

Bu gün Azərbaycanda çıxan qəzetlərin sayını heç kəs dəqiq deyə bilmaz. Çünki qeydiyyatdan keçən qəzetlər bir və ya iki nömrəsi çap olunandan sonra fəaliyyətini dayandırır, yaxud da il ərzində iki-üç nömrəsi işıq üzü görür. Əlbəttə, belə acınacaqlı faktların obyektiv və subyektiv səbəbləri var. Müntəzəm çap olunan qəzetlərin isə böyük əksəriyyəti nə jurnalistika, nə dil, nə üslub, nə məzmun, nə də orfoqrafiya baxımından lazımi səviyyədə deyil. Həsən bay Zərdabinin, Cəlil Məmmədquluzadənin, Sabirin min bir əziyyətlə yaratdıqları və bizə əmanət qoyub getdikləri mətbuatımızın başının üstünü qara buludlar alıb. Özlərini jurnalist adlandırıb qəzet səhifələrini, ekranları dedi-qodu meydanlarına döndərən, xalqın maariflənməsi işini yüz il geriyə atanlar heç olmasa o kişilərin ruhu qarşısında özlərini günahkar sayırlarmı? "Sən mənim dilimə dəymə, cəllad!" deyəndə şairlərimiz, yazıçılarımız təsəvvürlərinə belə gətirməzdilər ki, cəllad bizim öz içimizdə göyərəcək, dilimizə, mədəniyyətimizə, bütövlükdə mənəviyyatımıza qənim kəsiləcək. Azərbaycan dilinin, orfoqrafiyasının, üslubunun, qrammatikasının bu səviyyəyə enməsində günahkar olanlar görəsən tarix qarşısında nə cavab verəcəklər? Alimlərimiz, şair və yazıçılarımız dilimizə yad, yabançı olan sözlərin ədəbiyyata gəlməməsi üçün həyatlarını sərf edib qiymətli elmi əsərlər yazıblar, diskussiyalar açıb, mübahisələr ediblər. Uzun illər

bu dilin təəssübün çəkib, onun keşiyində durublar. İndi görəsən bu dilçilər, yazıçılar, alimlər niyə susurlar? Nəyi gözləyirlər? İkicə həftə bəsdir ki, qəzetlərdə gedən, ekranlardan eşidilən, dilimizə yad olan bayağı ifadələri, leksikonumuzdan uzaq olan yad sözləri toplayıb müzakirəyə çıxarasan və üzdəniraq "jurnalistləri" ifşa edib bədii dil ilə danışıq dilinin fərqini onlara anladasan. Bir xəyl qələcək düşmən bizim abidələrimiz, musiqimiz kimi sözlərimizi, ifadələrimizi də oğurlayanda bar-bar bağıracağıq, onda səsimizi eşidən olmayacaq. Axı jurnalistika sənətini bu qədər ucuzlaşdırmaq, bu qədər bayağılaşdırmaq bizə başucalığı gətirməz. Bəlkə həkimlər Hippokrat andı içib insanların sağlamlığı keşiyində durmağa söz verdiyi kimi, jurnalistlər də Cəlil Məmmədquluzadə andı içib mətbuatımızın, dilimizin keşiyində durmağa söz versinlər. Çünki mədəniyyəti, dili olmayan xalqın gələcəyi olmaz.

Bütün bu acınacaqlı hallara baxmayaraq oxucular, əlbəttə ki, özlərinin düzgün seçimlərini edir. Hərənin bir daimi oxuduğu sevimli qəzeti var. Bu həmişə belə olub. Orta nəslin 70-80-ci illərdə səhər-səhər qəzet köşklərinin qarşısında növbəyə durub qəzet almağı yaqin ki, yadından çıxmayıb. O illər qəzetə böyük hörmət var idi. Hər bir hadisənin gerçək mənzərəsini oxucu qəzetdə axtarırdı. Hətta sözün düzgün yazılışını belə qəzetdə yoxlayırdılar.

Belə nəşrlərdən biri də o vaxtlar çox maraqla izlənilən "Bakı" və "Бакy" qəzetləri idi. Bir çox nəşrləri idarələrdə oxuculara məcburi abunə etdirərdilər. Hamı çalışardı "Bakı" və "Бакy" qəzetlərinə abunə yazılsın. "Коммунист", "Правда", "Известия" qəzetləri ilə rəqabətdə "Bakı" və "Бакy" axşam qəzetlərinin öz yeri vardı.

Yadımdadır, Sumqayıt Boru-prokat zavodunda fəhlalik edən babam işdən evə qayıdanda bir əlində çörək, o biri əlində "Бакy" qəzeti gətirərdi. Mən də həsrətlə babamın yolunu gözləyərdim. "Бакy" qəzetini əvvəldən axıra qədər acgözlüklə oxuyanda isə ağlıma belə gətirməzdim ki, bir gün mən də BDU-nun jurnalistika fakültəsinə daxil olacağam və hər gün sevə-sevə oxuduğum qəzetin baş redaktoru Nəsir İmanquliyev mənə jurnalistikanın sirlərini öyrədəcək, bu sənəti mənə sevdirəcək.

Həyatda o insan özünü xoşbəxt saya bilər ki, gənclik illərində qarşısına çıxan insanlar ona ömür yollarının ən uğurlusunu, ən şərəflisini göstərsin, bu yolun hər eniş-yoxuşunda, hər keçidində, hər aşırımında elindən tutub büdrəməyə qoymasın. Tanrı üzümə güldü, qarşıma belə bir insan çıxdı və şərəfli jurnalistika sənəti həmişəlik mənim həyat kredom oldu. Bu müdrik ağsaqqal, gözəl insan Nəsir İmanquliyev idi. Mənə ələ gəlirdi ki, yazıçılar, şairlər öz əsərlərinin müsbət qəhrəmanlarını yaradanda Nəsir müəllimin obrazını təsvir ediblər. O, biz tələbələrə xüsusi diqqətlə, məhəbbətlə yanaşardı. Dərslərdə bizə kiçik yazılar yazdırar, əgər yazdığımız replikalar, oçerklər, zarisovkalar, reportajlar bir azca da olsa xoşuna gəlsəydi, aparıb o yazını "Bakı" və "Бакy" qəzetlərində çap etdirərdi və beləliklə, bizə bir dünya sevincbəxş edərdi. Jurnalistika Nəsir müəllim üçün bir özgə planet idi.

Ustad jurnalistin gözünün nuru, ürəyinin odu ilə ərsəyə gətirdiyi "Bakı" və "Бакy" qəzetləri əsl yaradıcılıq məktəbi kimi neçə-neçə ziyalının püxtələşməsində əvəzsiz rol oynamışdır.

Bu gün Azərbaycan jurnalistikasında adları hörmətlə çəkilən əsl qələm ustalarının bir çoxu Nəsir müəllimin xeyir-duası ilə bu sənətə gəlib və bu sənəti sevib.

Professor Şirməmməd Hüseynovun dediklərindən: "Nəsir İmanquliyev mənim üçün həm yüksək əxlaqi-mənəvi keyfiyyətli, hərtərəfli savadlı, təcrübəli jurnalist-müəllim, sonralar həm də səmimi və xeyirxah həmkar, qayğıkeş dost, böyük qardaş olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universitetində filologiya fakültəsində jurnalistika şöbəsi yaradıldı. Mən də elə həmin il bu şöbəyə daxil oldum. O vaxt fakültədə respublikanın ən tanınmış adlı-sanlı alim-müəllimləri dərs deyirdi. Məmməd Arif, Mir Cəlal Paşayev, Əli Sultanlı, Mikayıl Rəfili, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Cəfər Xəndan, Məmmədağa Şirəliyev, Hadi Mirzəzadə, Həbib Səmədzadə, Feyzulla Qasımzadə və b. 1946-cı ildə fakültədə jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrası yaradıldı. Kafedranın müdiri 30-cu illərdə Moskvada Dövlət Jurnalistika İnstitutunu bitirmiş, zəngin elmi-nəzəri və təcrübi hazırlığı olan Həsən Şahgəldiyev təyin edildi. Həsən müəllim respublikanın tanınmış jurnalist və rəhbər mətbuat işçilərini tədris işinə cəlb etdi. Bunların sırasında respublikanın ən nüfuzlu rəsmi "Коммунист" qəzeti redaktorunun birinci müavini Nəsir İmanquliyev, həmin redaksiyanın məsul katibi İsrafil Nəzərov, Azərnəşrin direktoru, yazıçı Qılman Musayev, tanınmış tərcüməçi Cümşüd Əzimov və başqaları vardı.

Əgər bu gün universitetin jurnalistika fakültəsində işgüzar atmosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olmuşdur.

Nəsir müəllimlə dörd illik tələbə-müəllim münasibətlərimiz yaddan çıxmadı. Jurnalistikanın əsas sirlərini, yazmaq vərdişini, məsuliyyət hissini, dürüstlük və dəqiqliyi biz öz müəllimlərimizdən öyrənmişdik.

1950-ci ildə mən şöbəni bitirdim. Moskva Dövlət Universitetinin aspiranturasına qəbul olundum.

1954-cü ildə namizədlik dissertasiyası müdafiə edib doğma universitetə qayıtdım. Elə bu vaxtdan öz müəllimlərim, o cümlədən Nəsir müəllimlə həmkarlıq illəri başladı. Nəsir müəllimlə onun ömrünün sonuna qədər fasiləsiz bir fakültədə canla-başla işləmişik. Doğrudur, Nəsir müəllimin əsas iş yerləri zamanla dəyişirdi, o, Dövlət Radio və Televiziya Komitəsində sədr müavini, Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsində müavin, 1958-ci ildən təxminən 30 il "Bakı" və "Бакy" axşam-səhər qəzetlərinin baş redaktoru işləyirdi. Lakin müəllimlik fəaliyyətini bir an belə kəsməmişdi.

Nəsir müəllimlə birgə elmi əməkdaşlığımız da vardı. 1966-cı ildə Azərnəşr kafedramızın hazırladığı "Jurnalistika məsələləri" dərs vəsaitini nəşr etdi. Bu kitabın əsas müəlliflərindən biri də N.İmanquliyev idi. "Qəzetdə xəbər" bölməsini Nəsir müəllimlə mən birgə yazmışdıq. Tələbələr indi də bu dərs vəsaitindən istifadə edirlər. Dərslik "Qızıl qələm" mükafatına layiq görülmüşdür. Sonralar bu birgə elmi əməkdaşlığımız davam etdi. Dərsliyin 1972-ci ildə ikinci hissəsi çıxdı. Yenə əsas müəlliflərdən biri Nəsir müəllim idi. Bu elmi əməkdaşlığımız sonralar da davam edirdi. Nəsir müəllim Azərbaycan mətbuatının Böyük Vətən müharibəsi dövrü fəaliyyətinə dair namizədlik dissertasiyası yazdı və uğurla müdafiə etdi. Dosent və sonralar universitetin jurnalistika kafedrasının professoru oldu.

Nəsir müəllim Azərbaycanda jurnalistika kadrlarının bir neçə nəslinin xeyirxah, səmimi, qayğıkeş müəllimi olmuşdur.

Mən dələdərlə Nəsir müəllimgildə olmuşam. O evdə çörək kəsmişəm. Onun səmimi və alicənab həyat yoldaşı Gövhər xanımı, sevimli, istedadlı alim, şərqşünas qızı Aida xanımı çox böyük hörmətlə xatırlayıram.

Əgər bu gün universitetin jurnalistika fakültəsində işgüzar atmosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olmuşdur".

"Bakı" və "Бакy" qəzetlərinin indiki redaktoru Ağa Hüseynovun dediklərindən: "Nəsir müəllimlə ilk görüşüm yaxşı yadımdadır. Mən onu ilk dəfə 1958-ci ilin avqust ayında görmüşdüm. O vaxt Azərbaycan KP MK-nın Birləşmiş Nəşriyyatı indiki "Azərbaycan" mehmanxanasının olduğu yerdə idi. Nəşriyyatın qaranlıq sexində taler dəzgahının yanında ucaboylu, görkəmindən əsl ziyalılıq yağan bir kişi dayanmışdı. Onun əlində "Bakı" qəzetinin səhifələnməkdə olan variantı vardı. O, çapa hazırlanan nömrənin bir nüsxəsini əlində tutaraq məqalələrdən birinin sərlövhəsini necə görmək istədiyini səhifələyiciyə səbirlə izah edirdi. Ustanın təklif etdiyi şrifti iki dəfə çıxdaş edəndən sonra üçüncü variantı bəyəndi və razı halda dedi: "Bax, bu, yarayar...".

Usta həmin məqalənin başlığını yığmağı mənə tapşırdı. Mən o vaxt mürəttəblik sənətinin sirlərini yenicə öyrənməyə başlayan gənc şagird idim. Usta mənə müraciətlə: - Yadında saxla, Nəsir müəllim kabinet redaktorlarından deyil. O, qəzetin necə yarandığını ələ bilir. Buna görə də onun məsləhətlərinə əməl etməli, ondan öyrənməlisən... - dedi.

Ömrünün təxminən 65 illini jurnalistika sənətinə, doğma ölkəsinə, xalqına sədaqətlə xidmət etməyə sərf etmiş, özü barəsində xoş-xatirələr qoyub getmiş bu böyük şəxsiyyətlə mənim tanışlığım belə başlandı. Nəsir müəllimin gözəl keyfiyyətləri çox idi. İnsanları tanımaq, onların əməyə, intizama meylli olub-olmadığını hiss etmək istədadı ona sanki Tanrı vergisi idi. Adamlarda jurnalist "damarı" olub-olmadığını heyratamız bir şəkildə hiss etmək qabiliyyətinə mat qalmamaq mümkün deyildi. O, zəngin təcrübəyə malik bir seleksiyaçı kimi qəzetdə işləmək üçün kadr seçməkdə heç vaxt səhv etmirdi. Bu adamları uzun müddət sınaqdan keçirir, onların hərtərəfli təmiz, qəzet materiallarının tematikasını duymaq qabiliyyətini yoxlayır və yalnız bundan sonra onlardan biri üzərində öz seçimini edirdi. "Hə, bu adam bizə yarayar, onun yaxşı bir jurnalist kimi yetişməsi üçün təbii imkanları var" qənaətinə gələndə özü də çox sevinirdi. Belə adamlardan bəzilərini istehsalatda, digərlərini ədəbiyyatçılar arasında, üçüncüləri tələbə skamyası arxasında axtarırdı. Nəsir müəllim əməkdaşlar seçimi məsələsində öz kredosunu bir növ yekunlaşdıraraq deyirdi: "Bu işdə tələsmək yalnız işin ziyanına olar". İşçilərin yaradıcılıq uğurlarına Nəsir müəllimin ən yüksək qiyməti, adətən, "yaxşı" olurdu. O, jurnalistlərin bu qiymətdən yuxarı dəyərləndirilməsini qəbul etmirdi. Onun sözləri hələ də yadımdadı: "Jurnalistika elə nadir peşələrdən biridir ki, orada peşəkar mükəmməliyin son həddi yoxdur. İnsan ömrü boyu öyrənməlidir sözləri qəzetçilik peşəsinə çox münasibdir. Burada jurnalist ustalığının zirvəsi yoxdur və ola da bilməz. Əgər birisi özü barəsində "mən ela yazıram" - deyirsə, yaxud bu cür fikirləşirsə, belə jurnalistin, xüsusən qəzet işçisinin yaradıcılığında heç bir irəliləyiş gözləməyə dəyməz".

Əgər bu gün universitetin jurnalistika fakültəsində işgüzar atmosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olmuşdur.

Nəsir müəllimin həyat yolu heç də həmişə, necə deyərlər, güllü-çiçəkli olmamışdır. İrəliləyişlərlə yanaşı bəzən tənəzzül məqamları da olurdu. Çətin məqamlarda o, elastik bir yay kimi sıxılmağı bacarırdı. Adama elə gəlirdi ki, bu mədəni, alicənab insan şəhər partiya komitəsində, ələ Mərkəzi Komitədə də yüksək vəzifə kreslolarında əyləşən, nəya görəsə ondan xoşu gəlməyən məmurların təzyiqinə dözməyəcək. Lakin o heç vaxt ruhdan düşmür, ümidini itirmir, həyatından narazılıq etmirdi. Yadımdadır, ötən əsrin 70-ci illərinin ortalarında Bakı Şəhər Komitəsinin rəhbəri Nəsir müəllimlə bağlı kiçik bir məsələni şişirtmiş və onun ciddi cəzalandırılması barədə məsələ qaldırmışdı. O vaxt Nəsir müəllimin əsərləri ilə çox oynadılar, lakin o, əyilmədi, dözüb dayana bildi. Hər dələ ona yönəlmiş zərbələrə tab gətirmək üçün özündə qüvvə tapır, bütün xoşagəlməz məsələləri unudaraq doğma qəzetçilik işi ilə məşğul olurdu. 90 ilə yaxın ömür sürmüş əməkdar jurnalist, əməkdar mədəniyyət işçisi, "Qızıl qələm" mükafatı laureatı, professor Nəsir Əsədulla oğlu İmanquliyev həyatda çox şeyə başqalarından fərqli mövqedən yanaşırdı...

Yazıçı Qılman İlkinin (Musayev) dediklərindən: "Mən ötən əsrin 30-80-ci illərində dövri mətbuatımız tarixində üç peşəkar adam tanıyırdım. Hər üçü qəzetçi, yəni jurnalist idi. Peşələri elə bil doğulan gündən onların boylarına biçilmişdi. Bunlar Xasay Vəzirov, İsrafil Nəzərov, Nəsir İmanquliyev idi. Qəzetçilik onların həyatı, amalı idi. Sevincləri, kədərləri də ancaq qəzetlə bağlı idi. Onlar qəzet üçün yaşayır, qəzetlə nəfəs alırdılar.

Nəsir İmanquliyevin fəaliyyəti daha ibrətamiz idi. Çünki o eyni zamanda iki qəzeti idarə edirdi. "Bakı" , "Бакy" qəzetlərini yaşlı nəsil yaxşı xatırlayır. Bu axşam qəzetlərini oxumayan tapılmazdı. Bu qəzetlər bütün evlərin qonağı idi.

85 illik həyatında neçə insan ömrü yaşamışdı Nəsir müəllim. Qəzet onun üçün hər şey idi, həm müsahibi, həm yol yoldaşı. Yorulmaq nə olduğunu bilmirdi, yanağından həmişə qan damardı. Bu illərin acılı-şirinli günlərini görmüş, həyatın acısını dadmış, dövrünün çarpaşıq hədəfi, bəzən də qorxulu iradlarına dözmüş, danlaq və məzəmmətləri gərə-gərə ruhdan düşməmiş, mərdliklə öz işini davam etdirmişdi. Ona olan hücumların qarşısından heç zaman geri çəkilməzdi. Bu xüsusiyyət onun özünə əminliyindən, professionallığından irəli gəlirdi. O öz işçilərinə tapşırardı ki, gördüyünüz və ya eşitdiyiniz hər bir hadisəni 100 dəfə ölçməmiş qəzet səhifəsinə çıxarmayın. Bizim qəzetimizdə hər şey konkret, yığcam və dəqiq olmalıdır. Materialların ifadə tərzinə və səlistliyinə xüsusi diqqət yetirin. Mən o illərdə ədəbi və bədii əsərlərimlə yanaşı, bir oçerkçi kimi "Bakı" qəzetində tez-tez çap olunurdum. Bakının neftayırma zavodlarından, dəniz neft-çilərindən oçerklər və kiçik hekayələrimi bu qəzetdə dərc etdirirdim. Bir dəfə Nəsir müəllimin yanında olanda belə bir hadisənin şahidi oldum. O, redaksiya əməkdaşının bir yazısını geri qaytararaq dedi: "Mən neçə dəfə demişəm ki, belə ciddi məsələlərdə ellamləyə yol vermeyin. Mənə tovuz lələyi kimi bəzək-düzəkli sözlər lazım deyil, yazılar səlist və məqsədyönlü olmalıdır ki, oxucuya aydın formada çatdırılsın".

Azərbaycanda bir çox gənc jurnalistlərin yetişməsində Nəsir İmanquliyevin böyük xidməti vardır. Hazırda respulikamızın qəzet redaksiyalarında çalışan əsl jurnalistlərin bir-birindən gözəl yazılarını oxuyarkən Nəsir müəllimin çəkdiyi zəhmətin hədər getmədiyinə sevinir, fəxr edirsən".

Yazıçı-publisist Zemfira Məhərrəmlinin dediklərindən: "Elə əməlisaleh insanlar var ki, onlar istər sağlığında, istərsə dünyalarını dəyişəndən sonra daim xoş hisslər, ehtiram duyğusu ilə yada düşür, xatırlanırlar. Görkəmli jurnalist-alim, tanınmış söz adamı, nüfuzlu qələm sahibi Nəsir İmanquliyev kimi.

Bir neçə nəslin, o cümlədən mənim də mənsub olduğum nəslin jurnalistlərinin yetişməsində Nəsir müəllimin ölçüyəgəlməz zəhməti olub. Nəsir müəllim yetirmələrinin yaddaşında aydın fikirli, saf əqidəli, işıqlı ziyalı, xalqına, Vətəninə bağlı bir insan kimi qalıb. O, ustad jurnalist, əsl pedaqoq, sözübütöv, xeyirxah bir adam idi. Jurnalistikanın incəliklərini tələbələrinə səbrlə, təmkinlə izah edir, jurnalist etikası, mədəniyyəti, sözün qədir-qiymətini, mizan-tərəzisini bilməyin vacibliyini aşılayırdı. Tələbədən sadə, təvazökar insan olan, sadəlikdə böyüklüyün nümunəsini göstərən Nəsir müəllim auditoriyada tələbələri ilə canlı ünsiyyət qurur, gələcək jurnalistlərin mülahizələrini dinləyirdi.

Jurnalistika elə nadir peşələrdən biridir ki, orada peşəkar mükəmməliyin son həddi yoxdur. İnsan ömrü boyu öyrənməlidir

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin müəllim və tələbələri arasında belə bir fikir formalaşmışdı ki, fərasəti, yazı vərdişləri olan, ümidverən tələbə-jurnalist Nəsir müəllimin gözündən yayınmır. Bu sözlərdə həqiqət vardı, fakültənin ən yaxşı məzunları diplomunu alan kimi, Nəsir müəllimin xeyir-duası ilə "Bakı" və "Бакy" qəzetləri redaksiyasına işə düzəlirdi. Belə bir xoşbəxtlik mənə də nəsib olmuşdu və sonrakı yaradıcılıq uğurlarım bu jurnalistika məktəbində - doğma ocaqda püxtələşməyimlə bağlıdır.

1958-ci və 1963-cü illərdən nəşr edilən, uzun illərdən bəri "imzalar içində imzası olan", populyarlığını itirməyən bu qəzetlər, sözün həqiqi mənasında, N.İmanquliyevin jurnalist ömrünün, qəzetçilik fəaliyyətinin şah əsəri idi. O, illərdə də bu qəzetlər gerçəkliyə sədaqəti, reallığı əks etdirməsi ilə seçilir, oxucusunu düşündürürdü. Nəsir müəllimin "Yazı yazın, səs salıb mis kimi cingildəsin" kəlamı bu gün də peşəkar jurnalistlərin dilində zərb-məsələ çevrilib. Ustad jurnalistin gözünün nuru, ürəyinin odu ilə ərsəyə gətirdiyi "Bakı" və "Бакy" qəzetləri əsl yaradıcılıq məktəbi kimi neçə-neçə ziyalının püxtələşməsində əvəzsiz rol oynamışdır. Bu qəzetlərin, necə deyərlər, "şinelindən çıxmış" qələm sahibləri həyatın çox müxtəlif sahələrində, yüksək kürsülərdə çalışır, xalqımıza fayda verirlər.

Ömrümün 25 illini doğma divarları arasında keçirdiyim bu qəzetlərin hazırda iqtisadi çətinliklərlə üzləşməsi məni də qəlbən ağrıdır. Peşəkarlığın göstəricisi olan bu mətbu nümunələrin əvvəlki şöhrəti qaytarılsa, "Bakı" və "Бакy" sevərlər sevinər, xatirəsi hamıya əziz olan Nəsir müəllimin ruhu şad olar!"

Ömrünü vətənin tərəqqisinə, xalqının maariflənməsinə, gözəl adət-ənənələrin, Azərbaycan bədii dilinin qorunub saxlanmasına həsr etmək, layiqli, təmiz adı, sadəliyi, mədəniyyəti, təvazökarlığı ilə hamıya örnək olmaq hər kişinin işi deyil. Bunun üçün böyük ürək, ağıllı beyin, yüksək əxlaq gərəkdir insana. Nəsir İmanquliyev bütün bu xüsusiyyətləri özündə cəmləşdirməyi bacaran və tələbələrinə nümunə olan şəxsiyyət idi. Gənclik illərində vətənpərvərlik, mədəniyyət, mənəviyyat, təmiz ad kimi sözlər çox adama gəlişigözəl, söz xatirinə deyilən şablon sözlər kimi görünür. Lakin iller ötdükcə insan başa düşür ki, bu sözlər nə qədər vacib imiş həyatda. Və bizim hər birimiz, hörmətli Nəsir müəllim, bu sözlərin vacibliyini başa düşüb, nəsihətlərinizə qulaq asıb, sizə bənzəməyə çalışsaydıq nə pisliklər olardı, nə xəbisliklər, nə savadsızlar olardı, nə də ki, bədxahlar... Nə laqeyd, daşürəkli dünyamızın gözü qabağında bədniyyət qonşularımızın qurduğu fitnə-fəsadlar baş tutardı, nə demokratiyaya açılan böyük qapıların arasında ilişib qalardıq. Vətən niskili, torpaq ağrısı hər şeyə güc qələndə, istədadlı vətənpərvər övladlarımız kiminsə yedəyinə keçməzdi, nə hürriyyət sevinci gözlərdə qalmazdı, nə də, Nəsir müəllim, sizin təməlini qoyub getdiyiniz mətbuatımız, dilimiz, orfoqrafiyamız bu səviyyəyə enməzdi.

Bağışla bizi, Nəsir müəllim, biz sizə bənzəyə bilmədik.

Tamilla RÜSTƏMOVA